

■ Məmməd Qocayev

# PEYĞƏMBƏRLİK SƏADƏTİ

## (“İqbalnamə” haqqında)

Peyğəmbərlər ölmürlər, onlar şəhid olurlar. Şəhidlik həyatın ölüm, ruhun vücud üzərində qələbəsidir, insanın daim axtardığı dirilik suyudur. Şəhidlik insanın çata biləcəyi ən yüksək mənəviyyat zirvəsidir. Şəhidlikdə insan ruhu Tanrıya qovuşur və ölməzlik qazanır. Nizaminin **“İqbalnamə”** poeması qəhrəmanın filosofluq, peyğəmbərlik və şəhidlik yolunun bədii təsvirinə həsr olunmuşdur.

“İqbalnamə” “İsgəndərnamə”nin və bütünlükdə “Xəmsə”nin məntiqi yekunudur. Burada Nizaminin insan konsepsiyası tamamlanır, onun ideal insan axtarışları sona yetir və öz obrazlı ifadəsini tapır.

“İqbalnamə”də iki böyük mövzunun - filosofluq və peyğəmbərlik mövzularının birləşməsi müşahidə olunur. İsgəndər peyğəmbərlikdən öncə müdrik bir filosof kimi formalaşır. Yalnız filosofluqdan sonra ona peyğəmbərlik verilir. Şahlığı və filosofluğu İsgəndər özü qazanır, peyğəmbərliyi isə ona Allah bəxş edir. İyirmi yaşında şahlığa çatan İsgəndər iyirmi yeddi yaşında peyğəmbərliyə çatır.

“İqbalnamə” də “Şərəfnamə” kimi Allaha dua fəsli ilə başlanır. Lakin məzmun etibarı ilə bu fəsillər bir-birindən fərqlənir. “Şərəfnamə”də Allahın əbədiliyi və ülviliyi ön plana çəkilir. Şövkətli-şanlı şahlar şahının obrazını yaratmaq üçün məhz belə bir metodoloji fon lazım idi ki, ona nisbətdə dünya fatehi öz insanlıq həddini və dünyadakı yerini düzgün təyin edə bilsin. “İqbalnamə”dəki minacatda şair Allahın kamilliyini, mütləqliyini ön plana çəkir və bu fonda öz qəhrəmanının əqli və ruhi kamilləşmə yolundakı zəhmətindən və uğurlarından söz açır.

Allahın qarşısında hamı bərabərdir - sonsuzluq, əbədiyyət önündə bütün ölçülər eyni dərəcədə kiçikdir, dağ da saman çöpü qədər balacadır. Yalnız Allah mütləq kamildir, qalan nə varsa hamısı qüsurludur. Yalnız axirət dünyası mütləq gözəlliyə malikdir, bu dünya isə cazibədar və gözəl də olsa qüsurludur. Ona görə də əbədi həyat bu dünyada deyil, axirətdədir. Nizaminin fikri belədir və o, heç vəchlə bu dünyanın gözəlliklərini mütləqləşdirmir, onların ötəri olduğunu həmişə qeyd edir. Əsərin bu hissəsini, yəni bu dünyanın, yoxsa o dünyanın daha gözəl olması məsələsini izah edən tədqiqatçılar səhvə yol verərək qeyd edirlər ki, guya Nizami bu dünyanı axirətdən gözəl hesab edir. Lakin Nizami Allahla mübahisə etmir, onun kəlamını mübahisəsiz qəbul edir. Cənnəti görməmiş insan bu dünyanın gözəllikləri ilə tam qane ola bilər, lakin din yolunu tutmuş insan axirətin bu dünyadan daha gözəl olduğuna şübhə edə bilməz. Əsl həqiqət insanın özünün dərk edə bildiyi həqiqətlər deyil, vəhy yolu ilə ona çatdırılan ilahi həqiqətlərdir. İdrakdan inama keçid, Nizami təliminçə, insanın kamilləşmə yolundakı ən böyük irəliləyişidir.

Tam kamillik zirvəsinə çatmış ideal insanı Nizami Həzrəti Məhəmmədin simasında görür. O, dünyanın qaranlığında bir nur idi ki, abı-həyat kimi zülmətdə yaşardı. O, zülmət əhlinin çırağı, yaralı qəlblərin məlhəmi idi. Dünya parçalanıb dağılsa belə, Peyğəmbər onun rayihəsi kimi əbədi qalacaqdır. Beləliklə, Məhəmməd peyğəmbərin simasınada Nizami insan kamilliyinin zirvəsini və ona çatmağın yollarını göstərir. “İqbalnamə” qəhrəmanının həyat yolu onun bu kamillik zirvəsinə aparan yoldakı cəfaları və uğurlarından ibarətdir. İnsanın əqli və ruhi kamilliyi məsələsi “İqbalnamə”nin əsas mövzusunu təşkil edir.

“İqbalnamə”nin yazılma səbəblərindən söz açan müəllif xüsusi olaraq qeyd edir ki, onun bu əsərində “göylərlə mübarizə” yoxdur. “Şərəfnamə”də əsas mövzu kimi insanın dünya uğrunda, ədalət yolunda mübarizəsi, onun qüruru və şərəfi təsvir olunurdusa, “İqbalnamə”də insanın ilahi hikmət və ilahi varlıq qarşısındakı mütiliyi, ona çatmaq uğrunda mübarizəsi təsvir olunur. **Bu dünya məğrurları sevmir, dikbaşların boynunu kəməndə salır. Dünya bir karvansaradır, onun iki qapısı var, biri dağın başında, o biri quyunun dibindədir. Dağdakı qapıdan girən heç ola bilməz ki, quyudakı qapıdan çıxmasın. Ona görə də şam kimi işgəncələr içində tədricən yanıb yox olmaqdansa, şimşək kimi alışıb sönmək daha şərəflidir.**

Bütün bu ilahi hikmətlər və ilahi həqiqətlər fonunda Nizami öz qəhrəmanını filosofluq və peyğəmbərlik səfərlərinin işgəncəli və çətin yollarından keçirir.

Fatehlik səfərini uğurla başa vurub Ruma qayıdan İsgəndər bütün dünyanın sahibi kimi qayıtsa da, özünün son istəyinə nail ola bilmədi: dirilik suyunu tapmaq ona qismət olmadı. Ölümün labüdlüyü haqqında düşüncələr İsgəndəri dərin fikirlər və hikmətlər dünyasına gətirib çıxarır, o, dünya sirlərini, insan həyatının mənasını açmağa səy göstərir, əldə etdiyi bütün kitabları yunan dilinə tərcümə etdirir. Dünya və ilahi hikmətlərdən ibarət kitablar yazılır. Əvvəlcə dünya haqqında kitab yarandı. Sonra isə ruh haqqında kitab hazır oldu. Beləliklə də maddi və ruhi aləm haqqında biliklər xəzinəsi yarandı. İsgəndər bu xəzinəyə sahib olmaq həvəsinə düşdü. O, belə bir ferman da verir ki, elm adamları bütün adamlardan əziz tutulsun.

*Hər uca rütbədən*
*Alimin rütbəsi daha ucadır.*
*Qərar belə oldu ki, şahın yanında*
*Hər adam biliklə rütbə tutacaq (446-447).*

Dünya malından gözü doymuş fateh daha çox elmə, biliyə meyil edir. O, əvvəlcə adi həyat hikmətlərinə yiyələnmək istəyir, adi insanlarla görüşüb onları böyük maraqla dinləyir. İsgəndər və başqırxan qul əhvalatı, Qibtli Mariya əhvalatı, yoxsul çörəkçinin varlanması əhvalatı bu qəbildəndir. Sonra İsgəndər daha dərin fəlsəfi hikmətləri mənimsəmək üçün adlısanlı dünya filosofları ilə görüşüb söhbət edir: yetmiş müdrikin Hörmüzü inkar etməsi, Əflatunun saz qayırması, Sokrat və İsgəndər əhvalatı, Hind həkiminin İsgəndərlə söhbəti, İsgəndərin yeddi filosofla xəlvətə çəkilməsi.

Sadə adamlarla görüşlərdən və adi həyat hadisələrindən İsgəndər özü üçün ibrət dərsi götürür, həyatın hikmətlərini qavrayır. Hər bir rəvayətin öz gizli bir hikməti var və onların açılması İsgəndərin aqilləşməsinə xidmət edir. Bu cür bədii üsuldan Nizami “Sirlər xəzinəsi” və “Yeddi gözəl” poemalarında geniş istifadə etmişdi. Başqırxan qul əhvalatında heç bir sirrin gizli qala bilməməsindən söhbət gedir. **Nizaminin fikrincə, yalnız ilahi sirr əbədidir və onun açılması heç cür mümkün deyil. İnsani sirlər isə heç vaxt gizli qala bilməz. İnsanın öz sirrini gizli saxlamaq cəhdi bir növ Allaha qarşı itaətsizlikdir. Allahdan gizli olmayan şeyi bəndədən gizlətməyə dəyməz.** Bəyati əhvalatdan sonra İsgəndər filosofların fikirləri ilə bağlı olan daha beş əhvalatla tanış olur, bunları da yuxarıda sadaladıq. Məsələn, Sokrat və İsgəndər əhvalatında mənsəblə idrak, şahlıqla filosofluq bir-birinin əksinə qoyulur və müdriklik səlahiyyəti şahlıq səlahiyyətindən üstün tutulur. Dünya sahibi İsgəndərlə hikmətlər sahibi Sokrat qarşılaşırlar. Şahənşah hamı kimi filosofu da öz nökəri səviyyəsində görür. Lakin dünya malından gözünü çəkmiş Sokrat İsgəndərə tabe olmur və ona deyir:

*Mənim bir qulum var, adı həvəsdir,*
*Mənim ürəyim o qula fərman verir.*
*Sən elə bir adamsan ki, o qulun qulusan,*
*Bizim qulumuzun qulusan (495).*

Sokrat İsgəndəri ruhi kamilləşmə yoluna dəvət edir. Sokratla görüş qəhrəmanın həyatında bir dönüş nöqtəsi olur. İsgəndərin hindli alimlə mükaliməsi qəhrəmanın bir növ müdriklik imtahanına çəkilməsidir. Bu imtahandan o, şərəflə çıxır və filosofluq zirvəsinə yüksəlmiş olur.

Hindli alimin verdiyi suallar və İsgəndərin cavabları bir növ Nizaminin özünün fəlsəfi görüşlərini əks etdirir. Ona görə də bu sual-cavab üzərində bir qədər ətraflı dayanmağa dəyər. Hind filosofu soruşur: Allahın yeri haradır? O, yerdəmi, göydəmi? Onun varlığını necə isbat etmək olar? İsgəndər cavab verir ki, Allahı tapmaq istəyən özündən üz çevirməlidir. Allahın yeri məsələsinə gəlincə, dünyanı yaradanın yeri olmaz. Onu xəyalda axtarmaq da düz deyil. Xəyalda div ola bilər, Allah ola bilməz. Onun ibtidasını və intəhasını axtarmaq isə əbəsdir, çünki Allahın intəhasızlığına ağıl çata bilməz. Sonra hindli alim soruşur: bu kainatdan kənarda nə var? İsgəndər cavab verir: Xaliq yeddi hüdudu ona görə yaradıbdır ki, ağıl ondan kənara çıxmasın. Görünməz şeyə əqildə yer yoxdur. Ona görə də Allahı əql vasitəsilə dərk etmək olmaz. **Alim yenə soruşur: bu dünya bu qədər gözəl ikən, başqa dünya axtarmaq nədəndir? Əgər insanın yeri o dünyadırsa, onda o, bura nə üçün gəlir? İsgəndər deyir: xəzinə oradadır, açarı isə burada. Açarsız xəzinəyə çatmaq mümkün olmadığı kimi, bu dünyasız da o dünyaya çatmaq olmaz. Alimin növbəti sualı belədir: nədir bədənə həyat verən, atəşmi? İsgəndər cavab verir:**

*Canı ilk hərəkətə gətirən od olsaydı,*
*Onun yerini cəhənnəmdə tapmaq olardı (502).*

Ona görə də “can verdi” deyərlər, “can öldü” deməzlər. Allahın nurudur can. Bədənə həyat verən də o nurdur. Daha bir sual: Bəs, röya nədir? Cavab: Yuxu xəyal evindən doğur” (502). Hindli həkim yenə soruşur: Bəd nəzər necə qüvvədir ki, sevdiyini gözə gətirər? Qəlbitəmizlə bədnəzəri necə fərqləndirmək olar? İsgəndər bu sual qarşısında da aciz qalmır: **Nəzər dəydiyi yerə iz salır, oradan vücuda hava daxil olur və havayla birlikdə bədənə qeyri-sağlam qüvvələr də nüfuz edir. Gözdəymədə əsas günahkar isə gözə gələnin özüdür: o, həddən çox gözəl görünmək istəyir. Bədnəzər isə gözəlliyə məftun olmaqdan qorxur, məftunluqdan qurtarmaq üçün gözəlliyi yox etmək istəyir. Bədnəzərin həmişə alnı tərləyir, bəd nəzərə gələni isə əsnəmək tutur. Növbəti sual belədir: münəccimlər nədən bilir olanı? İsgəndər deyir: bütün olan və olacaq bu gümbəzin nəqşində əks olunmuşdur. Münəccimlər o yazını oxuya bilirlər. Olacağın hökmünü Allah özü vermişdir. Sonuncu sual: Niyə zənci qara, çinli ağdır? İsgəndər bu sualı belə açıqlayır: Dünya özü iki rənglidir. Günəşin də bir üzü ağ, o birisi qaradır. Onun qara üzü Həbəşə, ağ üzü isə Çinə doğrudur.**

Hindli alim İsgəndərin cavablarından çox razı qalır və onun biliyinə ehtiram ifadəsi olaraq qarşısında diz çöküb yeri öpür. Bu, İsgəndərin bir şah kimi deyil, bir həkim kimi qəbul edilməsidir.

Sınaqdan şərəflə çıxmış İsgəndər dünya filosoflarının məclisində ən hörmətli yerə layiq görülür: onun yeddi alimlə xəlvətində İsgəndər məclisin mərkəzində əyləşir, filosoflar isə onun ətrafında dövrə vururlar. Şair yeddi alimi yeddi peykərə, İsgəndəri isə onun mərkəzinə bənzədir və bununla da filosoflar məclisini hikmətlər dünyası kimi səciyyələndirir. Əgər əvvəl hindli alim İsgəndəri imtahana çəkirdisə, indi İsgəndər seçilmiş dünya alimlərini sorğu-suala tutur. O, Ərəstun, Sokrat, Bolinas, Vales, Əflatun, Forfuriyus, Hörmüz qarşısında dünyanın yaranması haqqında bir neçə sual qoyur: Əvvəlcə göy yaranmış, yoxsa yer? İlk əvvəlinci tərkib nə olub? Filosoflardan hər biri dünyanın yaranması haqqında öz fikrini söyləyir. Ərəstun dünyanın ibtidasında hərəkətin durduğunu söyləyir. Hərəkətdən isə cisim yarandığını deyir. Vales hər şeyin əsasını təşkil edən suyun olduğunu qeyd edir. Bolinas torpağı ilkin ünsür sayır. Sokrat deyir ki, ilk əvvəl Allahdan başqa heç nə olmamışdır. Forfuriyus da dünyanın Xaliq tərəfindən yaradıldığını və ilkin ünsür cövhərin olduğunu göstərir. Hörmüz dünyanın yaradıcısı və əsasını işıqda görür. Əflatun deyir ki, əgər Allah bir şeyi başqa bir şeydən yaratmış olsaydı onda maye əbədi mövcud olmuş olardı. Hər ünsürü o ayrıca xəlq etmişdir. Söhbətə İsgəndər yekun vurur: Bu dünya öz-özünə yaranmamış, onun bir xaliqi vardır. Xaliqin dünyanı necə xəlq etdiyini bilmək olmaz. Əgər onun necə xəlq etdiyini bilsəydim, onda mən özüm də yarada bilərdim. Deməli, xilqətin sirri idrakın imkanları xaricindədir, ona görə də bu məsələni araşdırmaq düzgün deyil.

Nəhayət, Nizaminin dedikləri: Xaliq bütün yaratdıqlarından öncə əqli xəlq etmişdir. Yaratdıqlarının nəqşini o əqildən gizlətmədi. Yalnız ilk nəqşəni əqlin nəzərindən gizli saxladı. ilk nəqşəni çəkdikdən sonra Xaliq əqlin gözündən pərdəni açdı və bütün gizli xəzinələrin açarını ona bəxş etdi. Əqil hər sirrə yol aça bilər, lakin o ilkin sirr haqqında isə söhbət açmağa dəyməz.

Nizami materialist görüşlü Ərəstundan başlayıb idealist görüşlü Əflatuna çatır, sonra isə sözü İsgəndərə verir. Son sözü isə şair özü deyir.

Bu fəlsəfi söhbətlərin mənasını insan zəkasının, insanın özünün əqli imkanlarının açıqlanması təşkil edir. Bu imkanların nə dərəcədə böyük olduğunu Nizami dönə-dönə vurğulayır. Lakin bununla belə, insanın əqli imkanlarının da bir həddi olduğunu qeyd edir. Burada da insanın imkanları sonsuz deyil. Bu məsələdə də insan İlahi varlıq qarşısında gücsüz görünür. Yalnız İlahi varlıq qarşısında. Qalan bütün məsələlərdə insan ən qüdrətli, ən kamil varlıq kimi təsdiq olunur.

Ona görə də filosoflardan heç biri, o cümlədən İsgəndər və Nizaminin özü də dünyanın xəlq edilməsi sirrini aça bilmirlər. Dünyanın nədən və necə yaradılması sualı cavabsız qalır. İnsan əqlinin imkanları burada sona yetir. İsgəndər də bir filosof və bir insan kimi öz əqli inkişafını başa vurmuş olur. O, hələ mütləq həqiqətə, mütləq kamilliyə çata bilməmişdir. Bununla da şair İsgəndərin təkamül yolundakı ikinci mərhələni yekunlaşdırmaqla yanaşı, üçüncü mərhələnin olacağına zəmin yaratmış olur. Fateh İsgəndər və filosof İsgəndərin çata bilmədiyi kamillik zirvəsinə peyğəmbər İsgəndər çatacaq.

**(Ardı var)**

